**BEHRUZ ELMAMUZ**
*BDU-nun psixologiya kafedrasının aspirantı*

# PSİXOLOJİ TƏSİR PROSESİNDƏ ŞƏXSİYYƏT AMİLİ ROLU

Psixoloji təsir ikitərəfli prosesdir;

Psixoterapevt – xəstə, psixoloq – sağlam adam, tərbiyəçi – uşaq.

Bu prosesdə onların hər birinin öz statusu öz rolu, öz mövqeyi vardır.

Lakin bir cəhət şəksizdir.

Psixoloji təsir prosesində həm psixoterapevtin psixoloqun və ya tərbiyəçinin, həm də xəstəlik, sayılan və ya uşağın şəxsiyyəti ilə bağlı amillər həlledici rol oynayır.

Psixoloji məsləhət və yardım xidməti bir çox ölkələrdə hələ yeni formalaşır. Psixoterapiyanın tarixi daha qədimdir. Bu sahədə əldə edilən zəngin təcrübə psixoloji təsir prosesində şəxsiyyət amilini daha ətraflı aydınlaşmaq imkanı verir. Gəlin, əvvəlcə məsələni bu aspektdə nəzərdən keçirək.(2.609.səh)

Psixoterapevtlərin demək olar hamısı təsdiq edirlər ki, öz-özlüyündə metodlar və priyomlar deyil, psixoterapevtik şəxsiyyəti müalicə edir.

Yeri gəlmişkən qeyd edək ki, pedaqoji təcrübə bu həqiqəti çoxdan təsdiq etmişdir. Müəllimin şəxsiyyəti böyük təsir gücünə malikdir.

Hər hansı tərbiyə metodu öz-özlüyündə nə qədər səmərəli olsa da, müəllimin şəxsiyyətini əvəz edə bilməz.

Bu mənada da haqlı olaraq deyilir ki, tərbiyə edənin özünü tərbiyə etmək lazımdır.(2.610.səh)

Bəs, psixoloji təsir göstərilən adamın özünün şəxsiyyəti nə kimi rol oynayır?

Biz ona orqanizm kimi, yoxsa şəxsiyyət kimi yanaşmalıyıq?

Şəxsiyyət amilini psixoloji təsir prosesində necə nəzərə almaq olar?

Bu sualları eksperimental material əsasında aydınlaşdıraq.

Bir eksperiment zamanı adamları iki qrupa ayırmış və onlara oyanma halı yaradan iynə vurmuşdular.

Birinci qrupda preparatın göstərəcəyi təsir izah etmiş, ikinci qrupda bu haqda belə bir məlumat verməmişdilər.

Birinci və ikinci qrupda eksperiment zamanı bundan başqa heç bir fərq olmamışdır.

Hər iki qrupda eksperimentator özünü eyni qaydada aparmışdır.

Lakin iynəni vurandan sonra qrupun birindi adamlar birdən-birə şadlanmağa və ya hirslənməyə başlamışdılar.

Digərində isə hər bir şey hiss etməmiş və özlərini adi qaydada aparmışdılar. Eksperiment prosesində adamların davranışı psixoloji cəhətdən izah etmək çətin deyildir.(2.611.səh)

İzahatdan asılı olaraq onların inyeksiyaya (dəri altına iynə ilə dərman yeritmək) münasibəti müxtəlif olmasıdır. Bu eksperiment «epizoddur».

Gəlin indi təsəvvür edək ki, hər hansı bir adam, məsələn zərurət üzündən uzun müddət psixotvor dərman qəbul edir. Görəsən bu onun özünə verdiyi qiymətlərə özünə münasibətinə, onun gerçəklik haqqındakı təsəvvürlərinə təsir göstərirmi? Məsələyə ümumi şəkildə yanaşsaq, burada iki halın mümkün olduğunu yerə bilərik.

Tutaq ki, iki xəstə nevrozdan müalicə olunur.Onlar xeyli sakitləşmişlər.

Xəstənin biri belə hesab edir ki, onun sakitləşməsi qəbul etdiyi dərmanların təsiri ilə bağlayır.

Digər xəstə isə məsələyə şəxsiyyət baxımından yanaşır.

O göstərir ki, əvvəl xəstə idim, ona görə hirslənirdim.

İndi isə sağalmışam, adamlar məni, məndə onları düzgün başa düşürəm. Həmin sözləri, gəlin, psixoloji terminlərlə ifadə edək onda məlum olacaqdır ki, xəstə idim, ona görə hirslənirdim.

İndi isə sağalmışam, adamlar məni, məndə onları düzgün başa düşürəm. Həmin sözləri, gəlin, psixoloji terminlərlə ifadə edək, onda məlum olacaqdır ki, xəstə özünün sakitləşməsini öz şəxsiyyətinin özünün özünə başqa adamlara, dünyaya münasibətlərinin dəyişilməsi ilə izah edir. Psixoloji müşahidələr göstərir ki, ikinci xəstə birinciyə nisbətən daha tez sağalır. Tutaq ki, xəstələrin hər ikisi müalicə kursuna qurtarmışdır.

Ancaq artıq dərman atmırlar. Həmin xəstələrdən hansında sonralar nevroz yenidən əmələ gələ bilər?

Psixoloji müşahidələr göstərir ki, yenə də birinci xəstədə nevroz nisbətən asanlıqla çox azdır.

Psixoloji cəhətdən bunu nə ilə izah etmək olar? Bu mühüm suala psixoloqlar belə cavab verirlər :(1.35.s)

İkinci xəstə müalicə kursuna qurtarandan sonra da onun özü və dünya haqqında dəyişilmiş təsəvvürləri mühafizə olunur. Qeyd edək ki, onda özü haqqında sağlam adam təsəvvür yaranmışdır: o, özünü xəstə hesab etmiş – onun reaksiyaların, davranışını öz-özlüyündə bu təsəvvürlər formalaşdırır.

Özünü pis hiss edəndə xalis fizioloji səbəblərə əlaqədar olaraq alkoqoliklərdə, peşmançılıq hissi yaranır, onlar özlərini nədə isə günahkar hesab edirlər. Bu zaman alkoqoliklərdə, ani surətdə olsa da, öz həyatlarını dəyişmək niyyəti əmələ gəlir.

Psixoloqlar belə hesab edirlər, psixoterapiya sərxoşun «peşmançılığından» istifadə etdikdə, alkoqolikin müalicəsi daha səmərəli gedir.

Təbabətdə belə bir aforizm vardır:

Bu, o deməkdir ki, xəstədə özü haqqında sağlam adam təsəvvürü yaratmaq, onun özünə və ətrafdakı adamlara münasibətini dəyişmək, başqa sözlə şəxsiyyət amilini nəzərə almaq lazımdır. Təcrübəli psixoterapevt müalicə prosesində şəxsiyyət amilinə xüsusi əhəmiyyət verir. Bu cəhəti nəzərə almadan xəstəni səmərəli müalicə etmək mümkün deyildir.(1.53.səh)

Təbabətin hansı sahəsinə müraciət edirsiniz-edin, hər yerdə həmin psixoloji həqiqətin şahidi olacaqsınız.

- şəxsiyyət amilnən, metodlarından yenə misal:

yenə də bir misal göstərək:

məşhur həkimlərdən birinin adı ilə bağlı olan bir əhvalat məlumdur:

Həkim ağır vəziyyətdə olan bir xəstəni müalicə edirdi.

O, xəstə ilə ilk söhbətində ondan soruşdu: otaqda neçə nəfər adam var. Xəstə cavab verdi: iki nəfər həkim etiraz etdi: düz saymadan otaqda üç nəfər var. Xəstə razılaşmadı. O həkimi və özünü göstərib dedi:

Əgər sən mənimlə müttəfiq olsun, biz ikimiz birlikdə xəstəyə qalıb gələcəyik, əgər sən xəstəliklə müttəhid olsan, onda xəstəlik qalib gələcək.

Bu əhvalatın məcazi mənası vardır. Şəxsiyyət amilini nəzərə almadan xəstəni səmərəli müalicə etmək olmaz.

Psixoloji təsir də şəxsiyyət amilinə istinad etməlidir.

Psixoloji məsləhət və yardım prosesində də şəxsiyyət amilinin nəzərə alınması xüsusi əhəmiyyətə malikdir.

Uşağın da, yaşlı adamın da şəxsiyyətini öyrənmək və nəzərə almaq, səmərəli psixoloji təsirin ən başlıca şərti belədir. Psixoloji təsir prosesində şəxsiyyət amilinin necə nəzərə almaq olar?

Psixoloq məsləhət üçün ona müraciət edən adamın şəxsiyyətini, emosional reaksiyalarının xüsusiyyətlərini, motivasiya sahəsini münasibətlər sistemini və s. ətraflı öyrənir. O, bu məlumatlar əsasında həmin adamın üzünə və ətrafdakı adamlara münasibəti dəyişir, qeyri-adekvat reaksiyalarını və davranış formalarını islah edir. Zəruri zallarda isə ailədə və kollektivdə adamların ona münasibətini dəyişir. Bir maraqlı məsələyə də diqqət cəlb edək: psixoloqlar praktik işçilərə, birinci növbədə isə müəllimlərə psixoloji təsir zamanı həmişə şəxsiyyət amilinin nəzərə alınmasını məsləhət görmüşlər. Onlar A.S.Maxarenko və s. suxomlinski və başqaları təcrübələrinə dəfələrlə müraciət etmiş görkəmli pedaqoqların bu sahədəki (sirrini) onların şəxsiyyət amilini nəzərə alması ilə izah etmişlər.

Bu gün psixologiyanın özünün tətbiqi elmə çevrildiyi bir şəraitdə psixoloji məsləhət və yardım praktikası ancaq şəxsiyyət amili əsasında düzgün inkişaf edə bilər.

Bu cəhətə də diqqət yetirmək lazımdır. (4.55.səh)

İctimai münasibətlər və şəxsiyyət psixologiyaya elmində əsas kateqoriyalardan biri hesab olunur.

Lakin bununla belə, qeyd etmək lazımdır ki, həmin kateqoriya heç də xalis psixoloji kateqoriya deyildir.

Şəxsiyyət bir çox elmlər, xüsusən də bütün ictimai elmlər tərəfindən ayrı-ayrı istiqamətlərdə öyrənilir.

Psixologiya elmini şəxsiyyətin psixoloji siması onun daxili aləminin psixi həyatının formalaşması prosesinin qanunauyğunluqları maraqlandırır.

Bu zaman psixologiya elmi yuxarıda nəzərdən keçirdiyimiz belə bir fundamental faktı əsas götürür ki, psixi hadisələr fəaliyyət və ünsiyyət prosesində formalaşır, inkişaf və təzahür edir, öz-özlüyündə onlar fəaliyyət və ünsiyyət deyil şəxsiyyət məxsusdur. (3.58.səh)

Şəxsiyyətin psixologiyası məsələləri son dərəcə mürəkkəb xarakter daşıyır. Şəxsiyyətin başlıca xassələri hansılardır? Onlar necə formalaşırlar?

Şəxsiyyətin xassələrinin obyektiv əsasını nə təşkil edir?

Bu suallara cavab vermək üçün məsələnin həllinə metodoloji baxımdan düzgün yanaşmaq zəruridir.

Bir halda ki, biz şəxsiyyət anlayışı ilə insanı ictimai varlıq cəmiyyətinin üzvü kimi səciyyələndiririk.

O zaman zəruri surətlə məsələyə «cəmiyyət və şəxsiyyət» problemi aspektində yanaşmalı insanın cəmiyyətdə həyatını öyrənməliyik, K.Marks «Feyerbax haqqındakı tezislərin» 6-cı maddəsində bu cəhəti xüsusilə qeyd edir. O yazır: «insanın mahiyyəti, ayrıca bir fərdə xas olan abstrakt bir şey deyildir».

İnsan mahiyyəti öz gerçəkliyində ictimai münasibətlərin məcmusudur.

İctimai münasibətlər nədir?

Onların hansı növləri vardır?

İctimai münasibətlər şəxsiyyətin psixi simasını necə müəyyən edir?

Bu sualları qısa da olsa aydınlaşdıraq.

Sosial qrupların, siniflərin və millətlərin iqtisadi, ictimai-siyasi, mədəni həyatı və fəaliyyət prosesində onların arasında və öz daxilində əmələ gələn münasibətlərə ictimai ictimai münasibətlər deyilir.

Ayrı-ayrı adamlar ictimai münasibətlərə bu və ya digər sosial ümumilik və qrupun üzvü kimi daxil olur.

Fərdlərin münasibətləri yalnız ilk baxışda daha çox şəxsi münasibətlər kimi görünür. Əslində isə onlar bir-birilə ünsiyyətə bu və ya digər sosial müəyyənliyə mənsub olan fərdlər kimi daxil olurlar.

İctimai münasibətləri maddi və ideoloji münasibətdən olmaq üzrə ki, böyük qrupa bölürlər.

Maddi nemətlər istehsalı cəmiyyətin əsasını təşkil edir. Buna görə ictimai münasibətlər içərisində maddi münasibətlər – iqtisadi istehsal münasibətləri, xüsusi yer tutan onlar aparıcı, müəyyənedici münasibətlərdir. Maddi ictimai münasibətlərin xarakter, cəmiyyətin məhsuldar qüvvələri ilə müəyyən olunur, onlar adamların şüarı və iradəsindən asılı deyildir.(4.9.səh)

İdeoloji münasibətlərə siyasi, hüquqi, əxlaqi və b. münasibətlər daxildir.

Onlar maddi ictimai münasibətlərin əsasında meydana çıxır.

İdeoloji münasibətlərin xarakter istehsal münasibətləri ilə müəyyən olunur. Maddi həyatın istehsal üsulu, ümumiyyətlə, həyatın ictimai-siyasi və mənəvi proseslər üçün sərt olur. İnsanların varlığını onların şüurunu müəyyən edir. Cəmiyyət ictimai münasibətlərin mexanik birliyindən deyil vahid sistemindən ibarətdir.

İctimai münasibətlər şəxsiyyətin formalaşmasının obyektiv əsasını təşkil edir.

Şəxsiyyət cəmiyyətin üzvüdür və onun məhsuludur.

Şəxsiyyət üçün cəmiyyət sadəcə olaraq xarici mühit deyildir. O, cəmiyyətin üzvü kimi, cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlər sisteminə daxil olur və bu əsasda onun bir şəxsiyyət kimi özünəməxsus xassələri formalaşır.

Şəxsiyyətin psixoloji məsələlərinin ictimai münasibətlərlə əlaqəsi dialektik xarakter daşıyır.

Həmin əlaqəni vasitəsiz birbaşa törəyən proses kimi izah etmək onu mexaniki şəkildə başa düşmək olardı.

Şəxsiyyətin psixoloji xassələrinin ictimai münasibətlərlə əlaqəsi müxtəlif amillərlə şərtlənir. Hər bir konkret adam ictimai münasibətləri fəaliyyət və ünsiyyət prosesində müxtəlif sosial qrupların (o cümlədən, ailənin) vasitəsilə mənimsəyir.

Bu o deməkdir ki, hər bir konkret şəxsiyyət cəmiyyət həyatını özünəməxsus tərzdə daxil olmuş, qoşulmuşdur.(5.19.s)

Onun həyat və fəaliyyətində ictimai münasibətlərin müxtəlif növləri öz reallığını müxtəlif şəkildə tapır. Gəlin misal göstərək: görəsən, fəhlə müəllim və ya alim istehsal münasibətlərinə eyni şəkildə daxil olurlarmı? Şübhəsiz ki, yox ictimai münasibətlərin növləri müxtəlif olsa da, onlar hər bir şəxsiyyətin həyatında eyni dərəcədə yer tutmur.

Onlardan hər hansı biri müəyyən bir adamın həyatında bilavasitə mühüm rol oynadığı halda başqasının həyatına dolayı yolla təsir göstərir.

İctimai münasibətlərin hər hansı bir növü müəyyən bir adamın həyatında üstün yer tutduğu halda başqasının həyatında köməkçi yer tutur. Adamlardan biri ictimai münasibətlərin bu və ya digər növünə epizodik şəkildə daxil olur, halbuki başqa bir adamın bütün şüurlu həyatı ictimai münasibətlərin həmin növilə üzvi surətdə bağlı olur.(5.12.səh)

İctimai münasibətlərin növlərinin müxtəlif adamların həyatında müxtəlif yer tutmasını nə ilə izah etmək olar?

Bu adamların hansı sinfi, millətə, etik qrupa mənsub olması, daxil olduğu sosial qrupa, o cümlədən ailəsinin tipi və quruluşu. Təhsil, səviyyəsi, hansı ictimai və siyasi partiyanın üzvü olması və s. ilə əlaqədardır.

Bundan asılı olaraq adamların fəaliyyət və ünsiyyəti prosesində özünəməxsus cəhətlər meydana çıxır, onlar özlərinin hüquq və vəzifələrinə müvafiq olaraq kollektivdə

ailədə, başqa sosial qruplarda yaranan şəxsiyyətlərarası münasibətlərdə özünəməxsus yer tuturlar.

Bu cəhətlər tədricən onların hərəkət və əməllərində tələbatlarına da, fəaliyyət motivlərində və başqa psixoloji xassələrində təzahür edir.

Möhkəmlənir və onları şəxsiyyət kimi səciyyələndirən xassələrə çevrilirlər.

### ƏDƏBİYYAT

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri: Bakı, 2002.
2.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2003.
3.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2006.
4.Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası, Bakı, 1986.
5.Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, Ozan, 1998.

**БЕХРУЗ ЕЛМАМУЗ**

### ЛИЧНОСТНЫЙ ФАКТОР В ПСИХОЛОГИЧЕСКОМ ВОЗДЕЙСТВИИ

Для определения психологической позиции личностей в социальной группе необходим учет двух факторов связанных с состоянием психологического здоровья личности (психологически здоровый и психологически нездоровый).

В условиях психологического дискомфорта личности, ей необходимо оказывать психологическую помощь и психологическое консультирование, что имеет особое значение.

В статье раскрываются особенности формирования личностей в группе с точки зрения наличия или отсутствия психологического комфорта.

**BAHRUZ ALMAMUZ**

### PSYCHOLOGICAL IMPACT OF PERSONALITY FACTOR

Identifying psychological condition of persons in society, it is important to take into consideration two factors, related with psychological safe condition of persons (psychological safe and psychological unsafe)

In condition of person's psychological discomfort, psychological help is necessary for him/her and psychological advice which makes particular sense.

Features of formation of personalities in society is disclosed in the work in presence and absence point of view of psychological discomfort.

***Rəyçilər: p.e.n. T.T.Babayeva, f.e.d.Z.Hacıyev.***

***BDU-nun Psixologiya kafedrasının 11 dekabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***